İnternet Vergi İDARƏSİ

# Elektron xidmətlərin

## tətbiqi ilə bağlı

# BƏLƏDÇİ

2018

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin əksəriyyətinin elektron analoqu yaradılmışdır.

Vaxtınıza və digər resurslara qənaət etmək məqsədi ilə vergi orqanlarına və xidmət mərkəzlərinə getmədən istənilən məkandan elektron xidmətlərdən (e-xidmət) istifadə edə bilərsiniz.

Vergilər Nazirliyinin e-xidmətlərindən istifadə qaydası barədə ümumi məlumatlarla buradan tanış ola bilərsiniz.

# Vergilər Nazirliyinin e-xidmətlərindən necə istifadə etmək olar?

E-xidmətlərin siyahısı ilə Vergilər Nazirliyinin rəsmi internet (www.taxes.gov.az) saytının **(1) «Xidmətlər»** bölməsindən **(2),** hər bir e-xidmətin istifadə qaydası ilə **«İnzibati reqlament»**lərdən **(3)** tanış ola bilərsiniz.

*Vergilər Nazirliyin saytının «Xidmətlər» pəncərəsi*



# Vergilər Nazirliyinin e-xidmətlərindən necə istifadə etmək olar?

Vergilər Nazirliyin e-xidmətlərindən istifadə üçün İnternet Vergi İdarəsi portalına daxil olunur. Portala Vergilər Nazirliyin rəsmi internet saytının (www.taxes.gov.az) «Xidmətlər» bölməsinin «**E-xidmətlər**» altbölməsindən keçid almaqla və ya birbaşa İnternet Vergi İdarəsinin **www.e-taxes.gov.az** saytına daxil olmaq mümkündür. Burada xidmətlər və onlardan istifadə təlimatları, proqram təminatı yenilikləri ilə tanış ola, öz kompyuterinizə zəruri yükləmələri edə bilərsiniz. E-xidmətlərindən istifadə üçün İnternet Vergi İdarəsinin «**GİRİŞ**» düyməsi sıxılmalıdır.

*İnternet Vergi İdarəsi portalı*




*Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti*

# Vergilər Nazirliyinin e-xidmətlərindən necə istifadə etmək olar?

İnternet Vergi İdarəsinin «GİRİŞ» düyməsi sıxıldıqdan sonra növbəti İndentifikasia olunmaqla sistemə giriş pəncərəsi açılır. İndentifikasia üçün vergi orqanından alınmış **<u>İstifadəçi kodu, şifrə və parol</u> (1),** gücləndirilmiş **<u>elektron imza</u> (2)** və ya **<u>ASAN imza</u>**dan **(3)** istifadə olunur.




Bu zaman İnternet Vergi İdarəsinin sizə lazım olan aşağıdakı bölmələrinidən **(4)** birini seşib həmin bölməyə daxil olursunuz:

- **Onlayn kargüzarlıq və E-VHF,**
- **E-bəyannamə, ƏDV_DH və ŞHV** və
- **E-qaimə**

Bu bölmələr vasitəsi ilə elektron sənəd dövriyyəsi, ərizələrin, bəyannamələrin tərtib edilərək elektron formada göndərilməsi, elektron vergi hesab-fakturaların və elektron qaimə-fakturaların tərtib edilərək elektron formada alıcılara göndərilməsi, ƏDV-nin depozit hesabı üzrə əməliyyatların aparılması, şəxsi hesab vərəqəyə baxış və digər xidmətlərdən istifadə imkanları yerinə yetirilir.

# İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və E-VHF» bölməsi

«**Onlayn kargüzarlıq və E-VHF»** bölməsi vasitəsi ilə əsasən sənədlərin elektron qaydada mübadiləsi və elektron vergi hesab-fakturaların elektron qaydada alıcılara göndərilməsi işləri yerinə yetirilir ki, bu bölmə aşağıdakı **3 altbölmədən** ibarətdir:

- «**Onlyn kargüzarlıq**» altbölməsi vasitəsi ilə vergi orqanı ilə vergi ödəyiciləri arasında sənədlərin *(ƏDV qeydiyyatı ərizəsi və digər ərizələrin, sorğuların, təkliflərin, təşəkkürlərin və məktubların)* elektron qaydada mübadiləsinin aparılması prosesləri həyata keçirilir.

Bu bölmədə hər bir istifadəçi üçün «**Fərdi e-qutu»** ayrılmış və bu qutuya göndərilmiş məktublarla vergi ödəyiciləri tanış olmalıdırlar.

- **«Elektron VHF»** altbölməsi ƏDV ödəyiciləri tərəfindən elektron vergi hesab-fakturaların onlayn və ya oflayn rejimdə tərtib edilərək alıçılara elektron qaydada göndərilməsi prosesini təmin edir. Bu altbölmədən istifadə yalnız gücləndiirlmiş elektron imzadan, o cümlədən Asan imzadan istifadə edilməklə aparılır.
- «**DTA forması»** altbölməsinin məqsədi isə Azərbaycan Respublikası ilə digər dövlət arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılmasına aid tətbiq edilən DTA formalarının elektron qaydada tərtib edilərək vergi orqanına göndərilməsi proseslərini təmin etməkdir.

# İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və E-VHF» bölməsi

**«Onlyn kargüzarlıq»** altbölməsindən istifadə qaydasına «**Fiziki şəxsin məlumat dəyişikliyi»** elektron xidməti üzrə misal: Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi barədə ərizəni göndərmək üçün **«Yeni müraciət» (1)** düyməsi sıxılır. Açılan pəncərədə «Kimə» siyahısından «Vergilər Nazirliyi» **(2)**, «Müraciətin növü» siyahısından «Ərizə» **(3)**, «Sənədin növü» siyahısından «Fiziki şəxsin məlumat dəyişikliyi ərizəsi» **(4)** seçib «Qəbul» **(5)** düyməsi sıxılmaldır.



# İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq» bölməsi

## «Fiziki şəxsin məlumat dəyişikliyi» elektron xidməti üzrə prosesin davamı

Qəbul düyməsi sıxıldıqdan sonra açılan ekranda fiziki şəxsin əlaqə məlumatlarına (telefon nömrəsi, elektron ünvan) və fəaliyyət növləri üzrə məlumata «**Əlavə et**» **(6)** və ya «**Seçilmişləri sil**» **(7)** düymləri vasitəsi ilə dəyişiklik edilir. Məlumat dəyişikliyi ilə bağlı əməliyyatlar başa çatdıqdan sonra «**İrəli» (8)** düyməsi sıxılır. Açılan pəncərədə daxil edilmiş məlumatlara baxılır, doğruluğunu təsdiqləmək üçün «**Qəbul»** (**9**) düyməsi sıxıldıqda ekrana «**Fiziki şəxsin məlumat dəyişikliyi ərizəsi»**nin icraya qəbul edilməsi barədə «**Bildiriş»** (**10**) çıxır. «**Çap**» düyməsi (**11**) vasitəsi ilə «**Bildiriş»**i çap etmək mümkündür. Göndərilən elektron ərizə fiziki şəxsin «**Göndərdiklərim**» qovluğuna düşür.






# İnternet Vergi İdarəsinin “Onlayn kargüzarlıq və E-VHF” bölməsinin «Elektron VHF» altbölməsi




*«Elektron VHF»nın tərtib edilməsi ekranı*

**«Elektron VHF»** altbölməsi ƏDV ödəyiciləri tərəfindən e-vergi hesab-fakturalarının tərtib edilməsi, göndərilməsi, eləcə də dəyişdirilməsi və ya ləğv edilməsi üçün nəzərdə tutulmuşdur.

E-vergi hesab-fakturası (E_VHF) onlayn rejimdə hazırlanaraq alıcıya göndərilməsi üçün «**Yeni Faktura»** pəncərəsinə daxil olunur, müvafiq məlumatlar daxil edildikdən sonra «**Fakturanı İmzala** və **Göndər»** düyməsi sıxılır, imzalama əməliyyatı yerinə yetirildikdən sonra E_VHF qarşı vergi ödəyicisinə göndərilir və göndərilmə barədə məlumatlar isə istifadəçinin «**Göndərdiklərim»** qovluğuna düşür. E_VHF-ları həm onlayn rejimdə, həm də **eFP proqramı** vasitəsilə **oflayn** rejimdə tərtib edilərək paketlədikdən sonra paket faylı elektron qaydada imzalandıqdan sonra alıcıya göndərilə bilir.

# İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və E-VHF» bölməsinin «DTA formaları» altbölməsi

«**DTA formaları»** altbölməsi vasitəsi ilə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılmasına aid tətbiq edilən DTA formaları (01, 02, 03, 04 , 05) aşağıda göstərilən ekrana hər bir forma üzrə zəruri məlumatları daxil edilib «**İrəli**» düyməsi sıxılmala vergi orqanına göndərilir. Bu zaman göndərilmiş «**DTA forması»** ekrana çıxır ki, «**Çap»** düyməsi ilə həmin ərizə formasını çap etmək mümkündür.




*“DTA formalar”ının tərtib edilməsi ekranı*

# İnternet Vergi İdarəsinin «E-bəyannamə, ƏDV-DH və ŞHV» bölməsi

**Bu bölmə** vasitəsi ilə əsasən vergi ödəyiciləri tərəfindən bəyannamələrin vergi orqanına elektron formada göndərilməsi, ƏDV-nin depozit hesabı üzrə əməliyyatların aparılması, habelə məlumat axtar və dəyişikliklərin edilməsi işləri yerinə yetirilir. Bölmə aşağıdakı **3** əsas altbölmədən ibarətdir:

- «**E-bəyannamə**». Bu altbölmənin məqsədi vergi ödəyiciləri tərəfindən bəyannamələrin vergi orqanına birbaşa onlayn formada (hələlik ancaq sadələşdirilmiş vergi bəyannaməsi) və ya Bəyannamə Tərtibat Proramı (BTP) vasitəsi ilə tərtib edilərək paketləndikdən sonra paket faylının elektron formada vergi orqanına göndərilməsi proseslərini təmin etməkdir.
- «**Məlumat axtar**». Bu altbölmənin məqsədi vergi ödəyicilərinin şəxsi hesab vəqərəsinə, mükəlləfiyyətinə və şəxsi məlumatlarına baxış imkanını təmin etməkdir.
- «**ƏDV Depoziti hesabı**». Bu altbolmə ƏDV üzrə yayınmaların qarşısının alınması və bu sahəyə avtomatlaşdırılmış nəzarətin həyata keçirilməsi üçün yaradılmışdır ki, məqsədi də vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi proseslərini təmin etməkdir.

Bu altbölmədə əməliyyat yalnız gücləndiirlmiş elektron imzadan, o cümlədən Asan imzadan istifadə edilməklə aparılır.

# İnternet Vergi İdarəsinin
# «E-bəyannamə, ƏDV-DH və ŞHV» bölməsi

«**E-bəyannamə**» altbölməsindən «**On-line sadələşdirilmiş bəyannamənin göndərilməsi»** elektron xidmətindən istifadə qaydası: “**E-bəyannamə**” **(1)** altbölməsində **«On-line sadələşdirilmiş bəyannamə» (2)** altmenyusu seçilir.

Açılan ekranda həmin bəyannamənin «**Ümumi məlumat**», «**Verginin hesablanması**», «**Muzdlu işlə əlaqədar verginin hesablanması»** və **Əlavə 1** *(4-cü rüb üzrə və ya bəyannamə növü ləğv etmə olduqda)*, **Əlavə 2** *(icarə haqqı üzrə ödəmə mənbəyində vergi tutulduqda)* və **Əlavə 3** *(1-dən artıq təsərrüfat obyekti olduqda*) bölmələrinə **(3)** aid müvafiq məlumatlar daxil edilir. Sonra «**Göndər**» **(4)** düyməsi, məlumatların doğruluğunu təsdiqləmək üçün isə «**OK**» **(5)** düyməsi sıxılır.



# İnternet Vergi İdarəsinin «E-bəyannamə, ƏDV-DH və ŞHV» bölməsi

## «On-line sadələşdirilmiş bəyannamənin göndərilməsi» elektron xidməti üzrə prosesin davamı

Bəyannamə məlumatlarının sistem tərəfindən yoxlanılması üçün ekrana gələn «Mesajda» «**Yoxla» (6)** düyməsi sıxıldıqdan sonra aşılan pəncərədə təsdiq gözləyən bəyannamə faylının qarşısındakı boş xana işarələnib «**Təsdiqlə» (7)** düyməsi sıxılır. Bundan sonra ekrana gələn *"Seçdiyiniz bəyannaməni təsdiqləmək istəyirsinizmi?"* mesajından sonra «**OK» (8)** düyməsi sıxılır. Təsdiq nəticəsində ekrana bəyannamənin vergi orqanına göndərilməsi barədə «**Bildiriş» (9)** gəlir ki, ona da baxmaq üçün «**Bildiriş»** düyməsi sıxılır.



# İnternet Vergi İdarəsinin «E-bəyannamə, ƏDV-DH və ŞHV» bölməsi

## «Məlumat axtar» altbölməsi

**«Məlumat axtar»** altbölməsi **«Şəxsi hesab vərəqəsi», «Mükəlləfiyyət», «Şəxsi məlumat»** və **«Borc məlumatları»** adlı **4** hissədən ibarətdir: Vergi ödəyicisi öz şəxsi hesab vərəqəsinə (ŞHV) baxmaq üçün «**Məlumat axtar»** bölməsini və «**Şəxsi hesab vərəqəsi» (1)** menyusunu seçərək açılan ekrana zəruri məlumatları daxil edib «**Qəbul»** düyməsi sıxdıqda «**ŞHV»** ekrana çıxır. Vergi ödəyicisi bu ekranda vergi öhdəlikləri haqqında bütün məlumatları əldə edə bilər. «**Çap**» düyməsi vasitəsi ilə «**ŞHV»**ni çap etmək mümkündür. Vergi ödəyicisi öz mükəlləfiyyətinə baxmaq üçün «**Mükəlləfiyyət» (2)**, şəxsi məlumatların baxmaq üçün «**Şəxsi məlumat» (3)**, borcuna baxmaq üçün isə «**Borc məlumatları» (4)** menyusu seçildikdə mükəlləf olduğu vergi öhdəlikləri, şəxsi və borc məlumatları ekranda əks olunur.



# İnternet Vergi İdarəsinin «E-qaimə» bölməsi

**«E-qaimə»** bölməsinin məqsədi vergi ödəyiciləri tərəfindən elektron qaimə-fakturaları «Elektron Faktura Tərtibatı Proqramı» (EFP) vasitəsi ilə «**Onlayn»** və ya **«Oflayn»** rejimdə birbaşa tərtib edilərək gücləndiirlmiş e-imza vasitələrindən (Asan İmza, e-İmza) istifadə edilməklə imzalanaraq malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaydada göndərilməsi proseslərini təmin etməkdir.




*"E-qaimə" bölməsinə giriş ekranı*

# İnternet Vergi İdarəsinin «E-qaimə» bölməsi

## «E-qaimə»nin tərtib edilərək göndərilməsi

Elektron qaimə-fakturanı tərtib etmək üçün «**E-qaimə»** bölməsi seçilərək sistemə daxil olunur və onlayn rejimdə aşağıdakı əməliyyatlar eilir:

- Elektron qaimə-fakturanın tərtib edilməsi, imzalanması və göndərilməsi;
- Elektron qaimə-fakturanın ləğv edilməsi;
- Elektron qaimə-fakturanın dəqiləşdirilməsi;
- Oflayn rejimdə hazırlanmış, «Asan DOC client» və ya «e-İmzalayıcı» proqramı ilə imzalanmış e_qaimə fakturaların paket faylının sistemə yüklənməsi və qarşı tərəfə göndərilməsi.




*"E-qaimə"nin tərtib edilməsi ekranı*

# İnternet Vergi İdarəsinin «E-qaimə» bölməsi

## **«E-qaimə»**nin tərtib edilərək göndərilməsi

Daha sonra açılan pəncərədə təqdim edilmiş məlumatlar doldurularaq **«İrəli»** düyməsi sıxılır. Əməliyyat yerinə yetirildikdən sonra **Bildiriş** formalaşdırılacaqdır. Bildirişlə «**Göndərdiklərim**» qutusunda tanış ola və çap edə bilərsiniz.



# İnformativ elektron xidmətlər

Vergilər Nazirliyinin göstərdiyi e-xidmətlərin bəziləri informativ e-xidmətlərə aiddir. Belə xidmətlər indentifikasia tələb etmir və hər kəsin istifadəsi üçün açıqdır. Buna misal olaraq «**Vergi kalkulyatoru**» e-xidmətini göstərmək olar.




*"Vergi kalkulyatoru" ekranı*